# Xalqın arzu və istəyini reallaşdıran partiya



Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır!

***Yeni Azərbaycan Partiyasının yaradılmasının 29-cu ildönümü ölkəmizdə böyük təntənə ilə qeyd olunur. YAP müasir Azərbaycanın siyasi həyatında mühüm rol oynayan, təsir dairəsi və beynəlxalq nüfuzu ilə fərqlənən, demokratikləşmə prosesinə öz töhfəsini verən siyasi partiyadır. Ölkəmizdə fəaliyyət göstərən 50-dən çox siyasi partiyanın heç biri YAP kimi böyük nüfuz qazana bilməmişdir. Bunu respublikamızda keçirilən prezident, parlament və bələdiyyə seçkilərində YAP-ın qazandığı parlaq qələbələr də təsdiqləyir. Son 28 ildə ölkədə keçirilən bütün seçkilərdə YAP digər rəqiblərini xeyli arxada qoyub. Təkzibedilməz faktdır ki, hazırda YAP kəmiyyət və keyfiyyət göstəricilərinə görə, nəinki ölkəmizin, hətta regionun siyasi palitrasının ən aparıcı siyasi təşkilatı kimi nüfuz qazanmışdır. Bunu "Xalq qəzeti"nə müsahibə verən ziyalılar da təsdiqləyirlər.***

**Səbinə XASAYEVA, Milli Məclisin deputatı:**

– Hər siyasi partiya cəmiyyətin və dövlətçiliyin maraqlarının ifadəçisi ola bilmir. Çoxpartiyalılıq cəmiyyətdə vizual demokratik mühit yaradır. Bütün partiyalar gerçəkliyin, milli-xəlqi maraqların, milli ruhun ifadəsinin partiyası olarsa, demokratik mühit yaradıla bilər.

1992-ci il noyabrın 21-də Naxçıvan Milli Məclisinin sədri, böyük tarixi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan dövlətçiliyi naminə partiya yaradılması təşəbbüsü tarixləşdi. Partiyanın təsis konfransında YAP-ın yaradılması haqqında qərar, proqram və nizamnamə qəbul edildi. Konfransda Heydər Əliyevin şəxsində yekdilliklə partiyanın sədri, həmçinin Siyasi Şurası, İdarə Heyəti və sədrin müavinləri seçildi.

Ulu öndər Azərbaycanın dövlət maraqlarını, dövlətçilik təsisatlarını bu partiyanın ideoloji strukturları əsasında möhkəmləndirməyi tövsiyə edirdi. Çünki Yeni Azərbaycan Partiyasının məramı azərbaycançılıq ideologiyasından rişələnmişdi. Yeni partiya Azərbaycanın dövlət maraqlarının siyasi, siyasi-ideoloji mahiyyətini ifadə edirdi.

Yeni Azərbaycan Partiyasının siyasi hakimiyyətə gəlişi və cəmiyyətin aparıcı ideoloji qüvvəsinə – iqtidar partiyasına çevrilməsi tarixi zərurət idi.

Ulu öndər xalqın israrlı təkidi ilə hakimiyyətə qayıtdı. Həmin vaxtlarda Azərbaycanda hakimiyyət böhranı, bunun nəticəsi kimi milli qarşıdurma yaranmışdı. Ölkə labüd dövlət çevrilişi ərəfəsində idi. Məhz Heydər Əliyev müdrikliyi və qətiyyəti Azərbaycanı bu vəziyyətdən çıxara bildi, dövlət çevrilişinin qarşısı alındı. Xalq sevdiyi, inandığı rəhbərin ətrafında daha sıx birləşdi.

Böyük tarixi şəxsiyyət, XX əsrin fenomenal siyasi xadimi Azərbaycanın iqtisadi potensialını hərəkətə gətirdi, ikitərəfli, çoxtərəfli iqtisadi müqavilələr dövlətin iqtisadi inkişafını müəyyənləşdirdi. Ulu öndər deyirdi: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır". Bu güclü ordunu da ulu öndər özü formalaşdırmışdı. Orduda vahid komandanlığın yaradılması, ordu quruculuğunda aparılan əsaslı islahatlar, hərbi təhsildə həyata keçirilən yeniliklər və s. uğurlar gətirdi.

Heydər Əliyevin sərkərdəliyi ilə Horadiz əməliyyatı Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığını yüksəltdi. Sonra 2016-cı ilin Aprel döyüşləri, 2020-ci ilin iyul döyüşləri...

Bu uğurlar məhz Yeni Azərbaycan Partiyasının ideoloji istiqamətverici gücü ilə qazanılıb.

Ulu öndər Heydər Əliyevin idrakının nəticəsi kimi yaradılan partiya illər ərzində ölkədə siyasi sabitliyin, davamlı inkişafın təminatçısı olub. Qısa müddət ərzində minlərin, on minlərin, yüz minlərin timsalında xalqın partiyasına çevrilən Yeni Azərbaycan Partiyası milli və dünyəvi dəyərləri yaşadan, tolerantlığı təbliğ edən siyasi təşkilatdır.

Yeni Azərbaycan Partiyası dövlətçiliyin partiyasıdır. Obrazlı şəkildə desək, bu partiya zamanın tələbi kimi yaranmışdır. Yaradıcısı dünyəvi siyasətin nəhəngi Heydər Əliyevi olub.

Bu partiyanın fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyasına və qanunvericiliyinə əsaslanır. YAP milli-xəlqi maraqlar əsasında hazırlanmış nizamnaməsi və proqramı əsasında fəaliyyət göstərir, Vətənə xidməti ömrün mənası bilənlərin partiyasıdır. Azərbaycanda hüquqi dövlət, sabit və sosial yönümlü iqtisadiyyat, vətəndaş cəmiyyəti qurmaq ideyalarını qəbul edən vətəndaşları birləşdirən siyasi partiyadır.

YAP demokratik cəmiyyətin, tolerant dövlətin iqtidar partiyasıdır. O, siyasi dialoqu dəstəkləyir, partiyalararası münasibətlərdə başlıca amilin milli maraqlar kimi, qəbul edən və bunu başlıca fəaliyyət istiqaməti bilən partiyadır. Nəhayət, YAP xalqın rifahının qarantı olan partiyadır.

**Yusif AĞAYEV, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müşaviri, dosent:**

– Yeni Azərbaycan Partiyası müasir siyasi partiya kriteriyalarına sahib olan, 29 il ərzində şərəfli inkişaf yolu keçən və fəaliyyəti ilə Azərbaycanın həm daxili, həm də xarici həyatında əhəmiyyətli rol oynayan siyas qurumdur. Bu gün ətrafında 800 minədək insanı birləşdirən YAP Azərbaycan cəmiyyətinin siyasi, iqtisadi, sosial və mədəni həyatında uğurlu layihələri ilə əhəmiyyətli rol oynayır. 28 ildir ki, iqtidarda olan ictimai-siyasi həyatda həlledici rol oynayan partiya ölkəmizin uğurlu inkişafına güclü təsir göstərir.

Məlum olduğu kimi, Yeni Azərbaycan Partiyası ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə meydana çıxan mürəkkəb siyasi situasiyanın daxili məntiqindən, zamanın təxirəsalınmaz tələbindən irəli gələrək, Azərbaycan xalqının arzu və istəklərinin ifadəçisi kimi yaranan partiyadır. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalı ulu öndərə müraciət edərək ölkədə yaranmış anarxiya, özbaşınalıq və xaosdan ciddi narahat olduqlarını bildirmiş və yeni siyasi partiya yaratmağı və həmin partiyaya rəhbərliyi öz üzərinə götürməyi xahiş etmişdi. Müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq, Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

Ümummilli lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi: "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər".

Yarandığı ilk vaxtlarda müxalifətdə olan YAP getdikcə xalqın inam və etimadını qazandı. Artıq 29 ildir ki, YAP ölkəmizin inkişafına, beynəlxalq aləmdə əlaqələrinin möhkəmləndirilməsinə öz töhfələrini verir. Przident İlham Əliyev YAP-ın sədri seçildikdən sonra bu partiyaya gənclərin axını başlandı. Biz İkinci Qarabağ müharibəsi başlananda da bunun şahidi olduq. Yaşından asılı olmayaraq, hər kəs cəbhəyə gedib ərazi bütövlüyümüzün təmin olunmasında düşmənə qarşı mübarizə aparmaq istəyini bildirdi. Bu, dövlətimizin başçısına, YAP sədri İlham Əliyevə olan inam və etimadın göstəricisidir.

YAP yenə də avanqard siyasi qüvvə olaraq qalır. Partiyanın sədri, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun bir il əvvəl qazandığı Zəfər ölkəmizin nüfuzunu daha da artırdı. Biz hamımız bu tarixi Qələbənin sevincini yaşayırıq. İnanırıq ki, YAP bundan sonra da ölkəmizin inkişafında, dünya birliyində reytinqinin yüksəlməsində əhəmiyyətli rol oynayacaq.

**Ramil VƏLİBƏYOV, YAP Nizami rayon təşkilatının sədri:**

– YAP-ın yaranması 1988-ci ildən başlayaraq, ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. Bununla da xaos və hərc-mərclik içində olan, vətəndaş müharibəsi və dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmış Azərbaycanın xilasının, tənəzzüldən azad olaraq, tərəqqi yoluna çıxmasının əsası qoyuldu.

Müdrik şəxsiyyət Heydər Əliyev cəmiyyətin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasını qısa zamanda inkişaf etdirdi. Yarandığı vaxt müxalifətdə olan YAP sonradan iqtidar partiyasına çevrildi və ətrafına yüz minlərlə insan toplayaraq, ulu öndərin dediyi kimi, "dünənin, bu günün və sabahın partiyası" səviyyəsinə yüksəltdi. YAP ulu öndər Heydər Əliyevin siyasi irsinin institusional təcəssümüdür. Son illər ölkəmizdə keçirilən bütün seçkilərdə partiyamız böyük üstünlüklə qalib gəlib. Bu, partiyanın yaradıcısı olan ulu öndər Heydər Əliyevə və hazırki sədri Prezident İlham Əliyevə olan inam və etimadın bariz nümunəsidir.

Bugünədək müstəqil Azərbaycanın keçdiyi şanlı yolun böyük və əhəmiyyətli hissəsi bilavasitə Yeni Azərbaycan Partiyasının adı ilə bağlıdır. Əslində, YAP-ın 29 illik tarixi müstəqil respublikamızın yeni tərəqqi dövrünü əhatə edir. Partiya yarandığı gündən ölkədə həyata keçirilən hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu, demokratik inkişaf prosesinə öz töhfələrini verib. Zamanın sınaqlarından uğurla çıxan demokratik və sivil cəmiyyətdə xüsusi fəaliyyəti ilə seçilən YAP hazırda iqtidar partiyası kimi istər ölkə daxilində, istərsə də beynəlxalq aləmdə öz sözünü deyən siyasi qüvvədir. Təsadüfi deyildir ki, bu gün partiyamızın sıralarında 800 minə yaxın üzv birləşib. Ölkə ictimaiyyətinin, demək olar ki, əksəriyyəti YAP-ın avanqard rolunu, onun təkamül vasitəsi ilə ölkəmizin inkişafındakı rolunu yüksək qiymətləndirir, bundan qürur duyaraq hər zaman ona dəstək verir. Təsadüfi deyil ki, YAP-ın gücü bu gün Azərbaycanın gücü, qüdrəti kimi xarakterizə edilir.

Bu gün Prezident İlham Əliyevin sədrlik etdiyi Yeni Azərbaycan Partiyası respublikamızın siyasi təşkilatları içərisində həm kəmiyyət, həm də keyfiyyətcə müqayisə oluna bilməyəcək aparıcı partiyadır. YAP dayanıqlı inkişafın və siyasi sabitliyin təminatçısı olmaqla yanaşı, ölkənin bütün sahələrində yüksək fəallıq nümayiş etdirməklə, insanların dövlətçiliyə olan münasibətlərinin ifadəçisinə çevrilib. Partiyamız öz sıralarında Azərbaycanda hüquqi dövlət, sabit və sosialyönümlü iqtisadiyyat, vətəndaş cəmiyyəti qurmaq ideyalarını qəbul edən vətəndaşları birləşdirib. Bu mənada, partiyanın məfkurəsinin əsasını təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri mahiyyətcə Azərbaycanın siyasi gələcəyinin də ideya bazasını şərtləndirir.

*"Xalq qəzeti"*